# Qüdrətli ordunla daim irəli, Azərbaycan!

Yaranışından ulu tanrının vətənimizə bəxş etdiyi gözəlliklər, yeraltı, yerüstü sərvətlər, təbii xəzinələr hər zaman düşmən bağrı yardı. Yad əllər torpağımıza doğru uzandı, yad nəfəslər, vətənimizə bədbəxtlik gətirdi. Bu gün tariximizin ən ağır faciəsi düşmənin torpağımıza, vətənimizə hücumu, talanı, millətimizin dəfələrlə soyqırımlara məruz qalması, tarixi ərazilərimizin qəsbkar, vandal, terrorçu ermənilər tərəfindən talan edilməsidir ki, indi də bunun acı nəticələri göz qarşısındadır. Lakin onlar çox yaxşı bilirlər ki, bu torpaqlar tarixən Azərbaycanın olub, Azərbaycana məxsusdur. Onlar cox yaxşı bililər ki, bu torpaqlarda Azərbaycan xalqının mərdliyi, rəhimli və ürəyiaçıqlığı sayəsində məskunlaşmışlar. Lakin hər bir şeyi çox yaxşı bildikləri halda haqsızlığa, talana, işğalçılığa, terrorçuluğa davam etməkdədirlər. Bu torpaqlara gəlişləri ilə qara günlər, dərdbəla, müharibə gətirdilər. 1918-ci ilin soyqırımı, 1992-ci ilin Xocalı faciəsi və neçə-neçə qətliamlar, kütləvi qırğınlar erməni terrorunun əməllərinin bir hissəsidir. İllərlə gizli surətdə alt-aradan qanlı planlar həyata keçirdilər. Lakin 1988-ci ildən bu planları açıq şəkildə həyata keçirməyə, bir sözlə iç üzlərini dünyaya bəyan etməyə başladılar. Bu illər ərzində neçə-neçə faciələr yaşadıq, neçə-neçə mərd oğulları torpağa tapşırdıq, tarixi vətən torpaqlarımızın xeyli hissəsini müvəqqəti olaraq itirdik. "Böyük Ermənistan" yaratmaq istəyən ermənilər havadarlarının yardımı ilə bu torpaqları zəbt edib vətənimizin ərazillərində hökmran, hegemon olmaq istədilər. Lakin bir şeyi unutdular ki, onların qarşısında bayrağına, igidlik, mərdlik yazılmış, mərd ərənlər, qorxmaz Azəri oğulları dayanıb. Onlar fikirləşmədilər ki, bu vətənin oğulları bir qarış torpaqlarını heç bir kimsəyə pay verməz, canlarını, qanlarını verər, lakin ulu babaların əmanəti olan əbədi məkanlarını əsla. Torpağımızıda məskunlaşan suyumuzu içən çörəyimizi yeyən ermənilər keçmişlərdən indiyə qədər xalqımızın etdiyi bütün yaxşılıqları unudaraq bizlərə qənim kəsildilər. Onlar 1988-ci ildən əzəli Azərbaycan torpaqlarını işğal etməyə, maddi-mənəvi sərvətlərimizi talamağa, dədə-baba yurdlarında yaşayan xalqımızı güllə-baran etməyə, işgəncə və zülm verməyə başladılar. "Torpaqdan pay olmaz" deyən vətən övladları elə anındaca mübarizəyə başladılar. Düşmənlə savaşa-savaşa tarixi Azərbaycan torpaqlarının bütövlüyü uğrunda birləşdilər. Canlarını bu vətən torpağı uğrunda qurban verərək təki vətən yaşasın dedilər. Vətənə hər zaman canımız fəda olsun deyərək şəhidlik zirvəsinə ucaldılar.

Bütün dünya dövlətlərinin diqqəti Azərbaycanda, Qarabağda olduğu halda ermənilər 01 aprel tarixində yenidən atəşkəsi ciddi şəkildə pozdular. Azərbaycandan mənimsədikləri, işğal etdikləri torpaqları itirmək qorxusu onları rahat buraxmadığı üçün yalnız silaha güc verdilər. Bununla da gücsüz, qorxaq, namərd olduqlarını bir daha təsdiqlədilər. Artıq bu torpaqlar da düşmən nəfəsindən, tapdağından diksinib. Düşmənlər yaxşı bilməlidir ki, tarixi Azərbaycan torpaqlarını işğal etsələr də bütün bunlar müvəqqətidir. İndi "Xarı bülbülün" çəmənliklərə yaraşıq, gözəllik verən vaxtıdır. Çəmənliklər yaraşığı, şeirlərimizin, bayatılarımızın mirası olan Xarı bülbülümüz bizi səbirsizliklə gözləyir. Neçə illərdir ki, bu torpaqlardan onun çiçəyindən, çəmənindən, dağ havasından, zümrüd meşələrindən həsrət çəkmişik.

Bu günlərdə xalqımız torpaqlarının müdafiəsi naminə yenə də şəhidlər verdi. Neçə-neçə mərd oğullarımızı torpağa əmanət etdik. Hər şəhid verdikcə daha da möhkəmləndik,düşmənə qarşı olan kinimiz-küdurətimiz artdı,Vətən torpaqlarına olan sevgi-məhəbbətimiz daha da coşdu-çağladı. Yaşından aslı olmayaraq hər bir vətən övladı; oğlu,qızı bir sözlə mərd xalqımız həmişəki kimi heç nədən qorxmadan mübarizəyə hazır olduqlarını göstərdilər.

Damarında azərbaycanlı qanı axan, vətəni sevən, xalqımızın taleyini hər zaman şəxsi taleyi bilən bütün vətəndaşlarımız yumruq kimi birləşdi, ordumuza arxa-dayaq oldu. Vətənimizin torpaqlarının bütövlüyü uğrunda Azərbaycanın hər bölgəsi qəhrəman oğullar verdi. Hər bölgədə, hər bir ailədə yaşanan o ağrı-acı hər birimizin ürəyini parçaladı. Bu ağrı-acıdan Qəbələyə də pay düşdü. Bum qəsəbəsində Həsrət dayının ailəsinin kədərinə tək Qəbələ əhli deyil bütün Azərbaycanımız şərik oldu. Bu belə də olmalıdır. Çünki onlar bu vətən torpağında doğulub, boya-başa çatıb, bu qəhrəman övladlar cəmi Azərbaycanın övladlarıdır. Ümumiyyətlə, Qarabağ müharibələri baş verən gündən Qəbələ də neçə-neçə övladını itirdi. Onlar şəhid adını qazanaraq Azərbaycan tarixində ən yadda qalan səhifələr açdılar, qan yaddaşımızı təzələdilər. Onların xatirəsini əbədiləşdirmək məqsədilə Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində daimi olaraq "Qəbələ şəhidləri" adlı güşəmiz fəaliyyət göstərir. Qəbələ şəhidlərinin timsalında bütün Azərbaycan şəhidlərinin xatirəsi daima yad edilir.

Bu gün hər bir Azərbaycan vətəndaşı şəhidlərimizin ruhu qarşısında baş əyir. Çünki onlara hər an borcluyuq. Bu bir vətəndaşlıq, qardaşlıq, məslək borcudur. Allah sizlərə rəhmət eləsin Azərbaycan şəhidləri! Milli ordumuzun qəhrəman əsgərləri tökülən nahaq qanların qisasını alacaqlar. Onların şücaətinə arxalanaraq deyirik: Qüdrətli ordunla daim irəli, Azərbaycan!

**İlhamə SEYİDOVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi.**

---

## Bakıdan məktub

# Müzəffər ordumuz— rəşadətli döyüşçülərimiz

Aprel ayının ilk günlərində Qarabağ bölgəsində, Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş vermiş hadisələr dövlətimizin və xalqımızın qüdrətini, dəyanətini bir daha nümayiş etdirdi. Müzəffər ordumuz qətiyyətli əməliyyat tədbirləri gördü. Belə ki, Ağdərə-Tərtər-Ağdam və Xocavənd-Füzuli istiqamətində erməni-daşnak dəstələri təmas xətti yaxınlığında yerləşən yaşayış məntəqələrimizə iriçaplı silahlardan, minaatanlardan, qumbaraatanlardan və artilleriya qurğularından intensiv atəş açmış, nəticədə 400-dən çox ev zədələnmiş, mülki əhali arasında da itkilər olmuşlar. İnsanlarımıza qarşı düşmənin törətdiyi belə dəhşətli cinayətlər-qətliamlar şəraitində qüdrətli ordumuz əməliyyat şəraitinə uyğun olaraq erməni faşistlərinə layiqincə cavab verdi. Gərgin əməliyyat şəraitində Silahlı Qüvvələrimizin komandanlığı düzgün seçim etdi, işğal altında olan ərazilərimizin bir hissəsi geri alındı, bir neçə yüksəklikdən və vacib döyüş mövqelərindən düşmən qovuldu. Beləliklə, igid əsgərlərimiz və zabitlərimiz aprelin 2-dən 5-nə kimi işğalçı ordunun 370-dən çox hərbi qulluqçusunu məhv edib, 12 tankını, 12 zirehli texnikasını və 15 artilleriya qurğusunu sıradan çıxarıb. Xalq arasında bu tarixi qələbə və Qarabağ müharibəsində bir dönüş nöqtəsi kimi qiymətləndirildi. Məmləkətimizin hər tərəfində həmvətənlərimiz əminliklə bildilər, tam inandılar ki, Azərbaycanımızın peşəkar ordusu Ali Baş Komandanın, cənab İlham Əliyevin istənilən əmrini gecikmədən, yerindəcə həyata keçirməyə, düşmənin bütün təxribatlarının qarşısını almağa, iyirmi ildən artıqdır daşnakların tapdağı altında qalmış torpaqlarımızı işğaldan azad etmək kimi şərəfli missiyanı yerinə yetirməyə hər an hazırdır. Əlbəttə, müharibənin öz yazılmamış qanunları da var. Belə ki, artıq hamımıza məlum olduğu kimi, bizim döyüşçülərimiz arasında da şəhid olanlar və yaralananlar var. Yaralı əsgər və zabitlərimiz yüksək səviyyədə müalicə kursu keçir və dövlətimiz tərəfindən hər cür diqqət və qayğı ilə əhatə olunmuşlar. Belə bir şəraitdə hər kəs can atır ki, müalicədə olan yaralı döyüşçülərlə görüşsün, onların məğrur, qürurlu təbəssümünü öz gözləri ilə görsün, nəvaziş göstərsin.

Bu günlərdə, Bakıda yaşayan bir qrup Qəbələ ziyalısı cəmiyyətimizdə yaranmış həmrəyliyə qoşularaq hərbi hospitala baş çəkmişdir. Ağalar İbrahimov, Abid Tahirli, Akif Cabbarlı, Elçin Qəhrəmanov, Əsgər Həmidov, Kərəm Əhmədov, Qədir Kərimov, Mirzəbala Əmrahov, Namiq Murad, Nazim Ağayev, Şahin Əhmədov və bu sətirlərin müəllifi Bakıdaki hərbi hospitalda olmuşlar. Ziyalılar ilk növbədə cəbhədə şəhid olmuş döyüşçülərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra müalicədə olan hərbçilərə baş çəkdilər. Bu adamlar sırasında ağır yaralananlar da, nisbətən yüngül xəsarət alanlar da var. Amma, onların eyni dərəcədə səmimiyyəti, qələbə ruhunda yaşamaları, təbəssümlərindəki sevinc hissləri, müalicə başa çatdıqdan sonra yenə xidmət etdikləri hərbi hissələrə getmək istəkləri sanki hər birimizdə olan ruh yüksəkliyini bir daha gücləndirdi. Əsgərlərimizin belə cəsarətlə, mərdliklə torpaqlarımızı gələcəkdə tam azad etmək istəkləri qəlbimizdə vətənkeşlik məşəli yandırdı, bu məşəl mayaka çevrildi. Biz torpaqlarımızın müəyyən hissəsini azad etmiş həmvətənlərimizin belə ruh yüksəkliyindən, onlara qismən də olsa mənəvi dəstək ola bilməyimizdən məmnunluq duyğuları keçirdik. İnanırıq ki, bu xoşməramlı missiyaya qoşulmağa, cəbhədə yaralananlara baş çəkməyə başqa adamlarımız da tələsirlər.

Həmin müalicə ocağında əslən bizim Qəbələ rayonundan olan yaralılar da var idi. Öncə ürək ağrısı ilə bildirim ki, rayonun Bum qəsəbəsindən Şirinov Sahil Həsrət oğlu həmin 1-5 aprel döyüşlərində qəhrəmancasına şəhid olub (o nişanlı idi). Allah rəhmət eləsin! Dörd nəfər isə müalicə alır. Bunlar Anar Natiq oğlu Hacıyev (İmamlı kəndi), Arzu Aydın oğlu Allahverdiyev (Nohurqışlaq kəndi), Xəzər İbrahim oğlu Salamzadə (Xırxatala kəndi) və Mikayıl Muxtər oğlu Mikayıllıdır (Mıxlıqovaq kəndi).

İnanın, əziz dostlar, müzəffər ordumuzla, onun rəşadətli döyüşçüləri ilə fəxr etməyə tam haqqımız var.

**Ramin Məmmədov,**
**yazıçı-jurnalist, Qarabağ müharibəsi veteranı.**